

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti**

Sayı: 69 (22.980)

14 aprel 2018-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Gənclərin hərbi xidmətə yola salınması mərasimi keçirilib



***"Azərbaycan Respublikası vətəndaşlarının 2018-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 mart tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini, mayor Cavid Məmmədov açıb.

Mərasimdə Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Firudin Süleymanov, muxtar respublikanın ədliyyə nazirinin müavini Emin Səfərov, gənclər və idman nazirinin müavini Mirməcid Seyidov, təhsil nazirinin müavini Əli Vəliyev çıxış edərək bu əlamətdar hadisə münasibətilə çağırışçıları və onların valideynlərini təbrik ediblər.

Valideyn Namiq Novruzov övladının hərbi xidmətə yola salınmasından böyük qürur hissi keçirdiyini bildirib, çağırışçı gənclərə xoş arzularını çatdırıb.

Çağırışçılar adından çıxış edən Fərid Ələkbərov Vətənə şərəflə xidmət edəcəklərinə, komandirlərinin tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirəcəklərinə söz verib.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Səxavət Salmanov bildirib ki, ölkəmizdə bütün sahələr üzrə əldə edilən nailiyyətlər ordumuzun da hərtərəfli inkişafına və güclənməsinə səbəb olub. Bu gün Azərbaycanın, eyni zamanda onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyini sayıqlıqla müdafiə edən müasir və güclü ordusu vardır. Ordu quruculuğu sahəsində görülən işlər, ölkəmizin hərbi qüdrətinin yüksələn xətt üzrə inkişaf etməsi Silahlı Qüvvələrimizin istənilən anda işğal altında olan torpaqlarımızı azad etməyə qadir olduğunu göstərir.

Xidmət rəisi Vətən qarşısında borcunu yerinə yetirməyə yola düşən çağırışçıların valideynlərini təbrik edib və əmin olduğunu bildirib ki, övladları ordu sıralarında ləyaqətlə xidmət keçməklə, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanmaqla Azərbaycan əsgəri adını bir daha uca edəcəklər.

Mərasim Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.

Qeyd edək ki, həmin gün Şahbuz və Sədərək rayonlarında da gənclərin ordu sıralarına yolasalma mərasimləri keçirilib.

✍ **Səbuhi HƏSƏNOV**

## Keyfiyyət əsas şərtdir



Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi bu ilin ilk rübündə yerli məhsulların keyfiyyətini, o cümlədən təsərrüfat subyektlərinin istehsal-xidmət şəraitinin standartların tələblərinə uyğunluğunu diqqətdə saxlamış, məhsulların keyfiyyət göstəriciləri 354 halda yoxlanılmış, sertifikatlaşdırılma ilə bağlı elektron xidmət vasitəsilə daxil olmuş 106 müraciət operativ icra olunmuşdur. Bu dövrdə 49 qida istehsalı müəssisəsinə maarifləndirmə xarakterli baxış keçirilmiş, aşkar olunmuş çatışmazlıqlar aradan qaldırılmışdır. Təsərrüfat subyektlərindən götürülmüş məhsul nümunələrinin 329 halda laboratoriya analizləri aparılmış və texniki normativ hüquqi aktların tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

Meyvə-tərəvəz və onlardan hazırlanmış məhsulların 34 halda keyfiyyət göstəriciləri yoxlanıldıqdan sonra sertifikatlaşdırılmış, 2 anbardan, 4 istixanadan və 7 satış obyektindən götürülmüş məhsulların 21 halda laboratoriya analizləri aparılmışdır. Arıçılıq məhsullarının və arıçılıq təsərrüfatlarında istifadə olunan avadanlıqların sertifikatlaşdırılması tədbirinin icrası istiqamətində aidiyyəti təşkilatların nümayəndələri ilə birlikdə Ordubad şəhərində, Babək qəsəbəsində, Culfa rayonunun Ərəzin və Şərur rayonunun Ərəbyengicə kəndlərində arıçılıq məhsulları istehsalçıları ilə maarifləndirmə xarakterli görüşlər keçirilmiş, bal məhsullarından götürülmüş nümunələr analiz olunmuş və keyfiyyət göstəricilərinin standartların tələblərinə uyğunluğu müəyyən edilmişdir.

Əhalinin hepatit virus infeksiyalarından qorunması işinə nəzarət üzrə ilk rübdə 92 təsərrüfat subyektində 278 işçinin tibbi müayinələri ilə bağlı monitorinqlər aparılmış, natamam tibbi müayinədən keçmiş 261 işçinin tam tibbi müayinəsi həyata keçirilmişdir. Komissiya tərəfindən 88 təsərrüfat subyektində 252 obliqat qrup işçidən qan nümunələri götürülmüş və müvafiq tibbi nəzarət təmin olunmuşdur. Həmçinin uşaq bağçalarının, məktəblərin, xəstəxanaların və digər təhsil və səhiyyə müəssisələrinin yerli məhsullarla təmin edilməsi və alınan qida məhsullarının keyfiyyətinin müntəzəm nəzarətdə saxlanılması istiqamətində 28 məktəbin bufetində, 6 təhsil müəssisəsinin bufet və yeməkxanasında, 12 məktəbəqədər tərbiyə müəssisəsinin yeməkxanasında monitorinqlər, 6 səhiyyə müəssisəsinin yeməkxanasında yerli məhsullarla təminatın üstünlüyü barədə maarifləndirici tədbirlər aparılmış və müşahidə olunan nöqsanlar aradan qaldırılmışdır.

Xarici bazarlara çıxış imkanına malik məhsulların ixracının dəstəklənməsi çərçivəsində işçi qrupu müəssisələrdə olmuş və müvafiq tədbirlər görülmüşdür. İdxal olunan malların etiketlərində və adlarında istehlakçılar üçün Azərbaycan dilində zəruri məlumatların olmasına nəzarət aparılmış, məhsulların üzərinə 18 halda Azərbaycan dilində zəruri məlumatlar vurulmuşdur. Muxtar respublikada istehsal olunan məhsulların markalanmasına nəzarət məqsədilə 30 istehsal müəssisəsində maarifləndirmə xarakterli monitorinqlər aparılmış, 8 müəssisədə istehsal olunan məhsulların etiketlərində səhvlərin olduğu və standartların tələblərinin pozulduğu aşkarlanmışdır.

Ötən dövrdə metroloji norma və qaydalara uyğun olaraq 1144 ölçmə vasitəsi yoxlanılmışdır. Fövqəladə Hallar Nazirliyi və Dövlət Gömrük Komitəsinin nümayəndələri ilə birgə elektrik və qaz cihazlarının satışını həyata keçirən 89 təsərrüfat subyektində müşahidə xarakterli təkrar monitorinqlər aparılmışdır. Vətəndaşlar tərəfindən şəxsi istifadə üçün gətirilmiş 2 qaz sobasının dəm qazına qarşı təhlükəsizlik sistemi olmadığı, 1 qaz sobasının isə yeni olmadığı aşkarlanaraq istehsalçı ölkəyə geri qaytarılmış, 2 mətbəx qaz pilətəsinin təhlükəsizlik sistemi olmadığından satışdan çıxarılmışdır.

Ordubad rayonunun Gilançay, Culfa rayonunun Kırna kəndlərində mədəni və yabanı dərman bitkilərinin mövsümə uyğun yığılması, qurudulması, onlardan bitki ekstraktlarının hazırlanması qaydaları ilə bağlı AMEA Naxçıvan Bölməsinin və İqtisadiyyat Nazirliyinin əməkdaşları ilə birlikdə müvafiq rayonlarda fəaliyyət göstərən ailə təsərrüfatları üçün seminarlar keçirilmiş, mədəni və yabanı dərman bitkilərinin tədarükü ilə bağlı maarifləndirici bukletlər paylanılmışdır. Ailə təsərrüfatlarında istehsal olunan məhsulların markalanmasına köməklik göstərilməsi üçün 4833 etiket hazırlanaraq ailə təsərrüfatlarına çatdırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

***2018-ci ilin birinci rübündə muxtar respublikada yeni texnologiyaların tətbiqi və əhaliyə keyfiyyətli rabitə xidmətlərinin göstərilməsi diqqət mərkəzində saxlanmış, 577 yeni telefon nömrəsi istismara verilmişdir. Bu dövrdə muxtar respublika ərazisində, ümumilikdə, 7580 metr fiber-optik xətt çəkilmişdir. "Evədək optika" layihəsi çərçivəsində 10 fərdi mənzil fiber-optik xətlə, 2053 yeni abunəçi isə genişzolaqlı internetlə təmin olunmuşdur.***

## Muxtar respublikada rabitə və yeni texnologiyalardan istifadə diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikasının "Elektron hökumət" portalında yenilənmə işləri davam etdirilmiş, "Naxçıvan İslam Mədəniyyəti – 2018" internet səhifəsi qlobal şəbəkəyə inteqrasiya olunmuşdur. Dövlət Sığorta Agentliyi və onun rayon idarələri arasında sənəd mübadiləsi üçün daxili şəbəkə quraşdırılmışdır. Dövlət Sosial Müdafiə Fondunun server və şəbəkə avadanlıqları yenilənmiş, rayon şöbələrinin mərkəzlə əlaqələri təmin edilmişdir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumat verilməsi xidmətinin "Elektron hökumət" portalına inteqrasiya edilməsi işləri başa çatdırılmışdır.

Şərur rayonunun Ərəbyengicə kəndində yeni poçt bölməsi yaradılmış, Culfa rayonunun Dizə kəndində poçt bölməsi yeni binaya köçürülmüşdür. 2018-ci ilin birinci rübündə kompüter kursları üzrə təhsil almaq istəyən 151 dinləyici üçün 12 ümumi və 51 fərdi qrup təşkil edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Birinci rübdə dəmir yolu nəqliyyatından 36 mindən artıq sərnişin istifadə edib



Muxtar respublikada dəmir yolunda daşımaların təhlükəsizliyi daim diqqət mərkəzində saxlanılır. Bütün bunların nəticəsidir ki, ilin birinci rübündə dəmir yolu vasitəsi ilə muxtar respublika ərazisindəki ayrı-ayrı tikinti təşkilatlarının ünvanına 7020 ton müxtəlif təyinatlı yük daşınmışdır. Hesabat dövründə yük-sərnişin qatarları vasitəsilə 36 min 908 sərnişin daşınmış, 486 sərnişin isə Naxçıvan-Məşhəd-Naxçıvan beynəlxalq sərnişin qatarından istifadə etmişdir.

Culfa Lokomotiv Deposunda lokomotivlər 11 dəfə texniki baxışdan keçirilmiş, 7 lokomotiv cari təmir edilmişdir.

İnfrastruktur İdarəsinin xidməti ərazisində baş və stansiya yollarına baxış keçirilmiş, yağış və leysan sularının maneəsiz ötürülməsi üçün tədbirlər görülmüşdür. Xidmət ərazidəki bütün keçidlər, yol yatağı, yoldəyişən və süni qurğular yoxlanılaraq çatışmazlıqlar aradan qaldırılmış, uçmaq təhlükəsi olan yerlərdə daşların zərərsizləşdirilməsi təmin edilmişdir. Dəmir yolunda istismarda olan maşın-mexanizmlərin saz vəziyyətdə saxlanılması üçün mütəmadi olaraq yoxlamalar aparılaraq çatışmazlıqlar aradan qaldırılmış, rabitə xətləri yenilənmişdir. "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin, Aza və Naxçıvançay təhlükəsizlik komandasının inzibati binalarında əsaslı təmir işləri davam etdirilmiş, Dəstə İdarəetmə Mərkəzi binasının əsaslı təmiri başa çatdırılmışdır.

***"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin mətbuat xidməti***

## Melioratorlar yaz suvarma mövsümünə hazırdır

Muxtar respublikada meliorasiya və su təminatı məsələləri diqqət mərkəzində saxlanılır. Yaz suvarma mövsümünü mütəşəkkil keçirmək məqsədilə tədbirlər görülmüş, nasos stansiyalarında, hidrotexniki qurğularda təmir-bərpa işləri aparılmış, kanallarda, arxlarda, kollektor və drenajlarda lildən təmizləmə və təmir işləri həyata keçirilmişdir. 2018-ci ilin birinci rübündə su anbarlarına 183 milyon kubmetr su ehtiyatı yığılmış, 101 kilometr beton və torpaq kanal, 97 kilometr ara arxları, 7 kilometr kollektor lildən təmizlənmiş, 12 kilometr yeni suvarma və 2 kilometrə yaxın yeni içməli su xətti çəkilmiş, 5 kəhriz bərpa olunmuşdur.



Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 410 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisinə başlanmış və 6280 metr paylayıcı boru xətti çəkilmişdir. Sədərək və Kəngərli rayonlarında 36 hektar torpaq sahəsi əkin üçün yararlı vəziyyətə gətirilmişdir. Həyata keçirilən meliorativ tədbirlər nəticəsində muxtar respublika üzrə 230 hektar sahədə qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınmışdır. Bundan başqa, torpaqları seldən qorumaq məqsədilə Naxçıvançay və Cəhriçay vadilərində, Qahab və Sirab selovlarında 6 kilometr istiqamətləndirici bənd tikilmişdir.

"Şəhər Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi çərçivəsində 2018-ci ilin birinci rübündə Şərur rayonunun Yengicə kəndində 4 kilometrə yaxın içməli su xətti, Babək rayonunun Şəkərabad kəndində müxtəlif diametrli borularla 9 kilometr içməli su xətt və 9 kilometr kanalizasiya xətləri çəkilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

# Zərifə xanım Əliyeva: görkəmli alim və əsl İnsan



*Xalqımız onu dünyada tanıdan və ucaldan zəkalı, təmkinli, müdrik oğul və qızları, görkəmli alim və mütəxəssisləri ilə daim fəxr edib. Azərbaycana belə fəxarət və başucalığı gətirən övladlarından biri də özünün vüqarı və qüruru, peşə xidməti və gündəlik fəaliyyəti, dərin elmi biliyi və fitri istedadı ilə fərqlənərək, dünya şöhrəti qazanan, əbədiyaşarlıq rəmzinə çevrilən, akademik Zərifə Əziz qızı Əliyevadır. Bu il dünya şöhrətli alim-oftalmoloq Zərifə xanım Əliyevanın anadan olmasının 95, əbədiyyətə qovuşmasının 33-cü ildönümüdür. Lakin görkəmli alimin 62 illik parlaq ömür yolu bu təqvim çərçivəsinə sığmayaraq xeyirxah əməlləri sayəsində ölməzlik qazanmışdır.*

Akademik Zərifə xanım Əliyeva mənalı və zəngin bir həyat yolu keçmişdir. O, qədim Naxçıvan diyarında, adlı-sanlı ziyalıların vətəni olan Şahtaxtı kəndində, görkəmli alim və siyasi xadim Əziz Əliyevin ocağında dünyaya göz açmışdır. Azərbaycanın elm və mədəniyyət xadimlərinin çoxu Zərifə xanımın ata evinin daimi qonaqları idi. Uşaqlıq və ilk gənclik illəri Şahtaxtıda keçən Zərifə Əliyeva bu kəndin maarifçi mühitinin işıqlı ənənələrindən faydalanmışdır.

Zərifə xanım 1942-ci ildə Bakı şəhərində orta məktəbi əla qiymətlərlə bitirərək Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirdikdən sonra oftalmoloq ixtisasını seçmişdi. Lakin Zərifə xanım bilirdi ki, oftalmoloq ixtisası üzrə kamil mütəxəssis olmaq üçün institutda aldığı təhsil kifayət etmir. Buna görə də institutu bitirdikdən sonra Moskvaya getmiş və orada Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda məşhur alimlərin iş təcrübəsi ilə tanış olmuş, praktik vərdişlərə yiyələnmiş, oftalmoloq ixtisası üzrə mütəxəssis kimi təkmilləşmə hazırlığı keçmiş, iki ildən sonra Vətənə qayıtmışdır. 1949-cu ildən etibarən Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində çalışmağa başlamışdır. Bununla da, onun elmi axtarışlarının, gələcək müvəffəqiyyətlərinin təməli qoyulmuşdur. O, fəaliyyət göstərdiyi Göz Xəstəlikləri İnstitutunun aspiranturasına daxil olmuş, elmi axtarışlar dövründə özünə rahat yollar seçməyərək Vətənə, xalqa xeyir verə biləcək ən çətin sahələrdə özünü sınamağa can atmış və istəyinə nail olmuşdur.

Ötən əsrin 40-cı illərinin sonlarında Azərbaycanı göz xəstəliyi olan traxoma bürümüşdü. O zaman xəstəliyə qarşı təsirli müalicə üsulları yox idi və onunla mübarizə təkcə oftalmologiya elmi üçün deyil, bütövlükdə, respublikanın səhiyyəsi üçün mühüm əhəmiyyət daşıyırdı. Xalqın sağlamlığının vacibliyini ön plana çəkən gənc alim ölkəmizi bürümüş yoluxucu göz xəstəliklərinin qarşısını almaq və bu xəstəliklərin ləğvinə nail olmaq üçün yollar axtarırdı. O dövrdə Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada 400 milyona qədər insan traxoma xəstəliyinə tutulmuş, bunun nəticəsində 80 milyon insan kor olmuşdu. Çünki traxoma xəstəliyinin müalicəsinə güclü təsirə malik dərman preparatları hələ mövcud deyildi. Belə bir dövrdə gənc tədqiqatçı Zərifə xanım Əliyeva traxoma xəstəliyinin qarşısını almaq üçün diaqnostika, müalicə və profilaktika üsullarının kompleks şəkildə tətbiqi istiqamətində mühüm tədbirlər hazırlayaraq həyata keçirməyə başlamışdır. Onun başlıca məqsədlərindən biri də Azərbaycanda traxoma xəstəliyinin müalicə və profilaktikasını vaxtında və yetərincə həyata keçirməkdən, bu prosesin elmi istiqamətlərini müəyyənləşdirərək səhiyyə praktikasına tətbiqini reallaşdırmaqdan ibarət olmuşdur.

Zərifə xanımın elmi fəaliyyətini yüksək qiymətləndirən ulu öndər Heydər Əliyev demişdir: ***"Zərifə xanımın tibb elmi sahəsində xidmətlərindən biri də göz müalicəsi, tədqiqatı idi. Mənə belə gəlir ki, onun iki dəyərli irsi vardır. Birincisi, Azərbaycanda ilk dəfə deontologiyanı bir elm kimi meydana atıbdır. İkincisi, Zərifə xanım çalışıb ki, bizim gələcək nəsilləri irsi xəstəlikdən xilas etsin, sağlamlaşdırsın".***

Gənc oftalmoloq traxoma ilə əlaqədar real vəziyyəti əyani olaraq müşahidə etmək üçün ucqar rayonlara gedərək göz xəstəliklərinin regional lokallığını müəyyənləşdirir, xəstəliyin epidemioloji xüsusiyyətlərini araşdırır, xəstələrə öz məsləhətlərini verir, bir sıra göz xəstəliklərinin profilaktika və müalicəsi haqqında maarifləndirici söhbətlər aparırdı. Yalnız bundan sonra dissertasiya müdafiə etməyi qərara alan alim 1959-cu ildə yerinə yetirdiyi elmi istiqamətlərinin nəticələrinə əsasən "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusu üzrə namizədlik dissertasiyası müdafiə edərək, tibb elmləri namizədi elmi dərəcəsinə layiq görülmüşdür.

Zərifə xanım 1960-1967-ci illərdə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışaraq, fəaliyyət göstərdiyi elm ocağında oftalmologiya elminin bütün sahələrinin inkişafına yaxından kömək göstərmiş, bu istiqamətin tərəqqisinə öz dəyərli töhfələrini vermişdir. O, ardıcıl olaraq yerinə yetirdiyi elmi-tədqiqat işləri ilə yanaşı, pedaqoji fəaliyyətini də davam etdirirdi. Belə ki, 1967-ci ildən etibarən Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasında pedaqoji fəaliyyətə başlayan Zərifə Əliyeva əvvəlcə kafedranın dosenti, sonra professoru, daha sonra isə həmin kafedranın müdiri olmuş, həkimlərin hazırlıqlarının tədris-metodik göstərişlərə uyğun şəkildə aparılmasına əlverişli şərait yaratmış, müxtəlif mövzulu monoqrafiyaların, tədris-metodik göstərişlərin, dərs vəsaitlərinin yazılmasına böyük əmək sərf etmişdir. Onun Sovet İttifaqında hələ o dövrdə böyük nüfuz qazanmış Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri üzrə SSRİ-nin müxtəlif guşələrindən gəlmiş və təkmilləşmə kursu keçən həkimlərlə apardığı mühazirə və praktik məşğələlərin əsasını tibb elmində əldə edilən yeniliklərin şərhi, praktik vərdişlərə yiyələnmənin istiqamətləri, müasir tibbi cihazların gündəlik təcrübədə tətbiqi üsullarının dərindən mənimsənilməsi kimi mühüm elmi istiqamətlər təşkil edirdi.

Görkəmli alimin aktual problemin həlli yollarında apardığı səmərəli işlər tezliklə öz bəhrəsini vermiş və o, 1976-cı il may ayının 27-də M.Helmholts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda "Azərbaycanın bəzi kimya sənayesi müəssisələri işçilərində görmə orqanının vəziyyəti" mövzusunda dissertasiya müdafiə edərək tibb elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdür.

Doktorluq dissertasiyası müdafiəsindən bir qədər sonra Zərifə xanım Əliyeva müsabiqə yolu ilə professor vəzifəsinə seçilmiş və qısa müddətdə onun çoxdan layiq olduğu bu elmi adı da təsdiq edilmişdir. Professor Zərifə Əliyeva 1979-cu ildə Bakı məişət kondisionerləri zavodu nəzdində Azərbaycan Elmlər Akademiyası Fiziologiya İnstitutunun "Görmə orqanının fiziologiyası və peşə patologiyası" adlı unikal bir laboratoriyanın yaradılmasına və onun səmərəli fəaliyyət göstərməsinə nail oldu. Zərifə xanım Əliyevanın elmi-tədqiqat işlərinin nəticələri alimin "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası zamanı oftalmopatologiya", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" kimi monoqrafiyalarında və digər elmi əsərlərində özünün dolğun əksini tapmışdır.

1981-ci ildə ölkəmizin tibb elmi, səhiyyə sistemi tarixində son dərəcə mühüm bir hadisə baş vermişdir. Moskvadan alınan xəbərdə qeyd edilirdi ki, Azərbaycan alimi Zərifə Əziz qızı Əliyeva görmə orqanının peşə patologiyası sahəsində apardığı silsilə elmi-tədqiqat işlərinin dəyərli nəticələrinə görə SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür.

Zərifə xanım Əliyeva 1982-ci ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasının müdiri vəzifəsinə, 1983-cü ildə nəzəri və təcrübi təbabətdə qazandığı müvəffəqiyyətlərə, alınan elmi nəticələrinin səhiyyə praktikasında geniş tətbiqinə, yüksəkixtisaslı tibb kadrlarının hazırlanması yolunda göstərdiyi dəyərli xidmətlərə görə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. O, Azərbaycan oftalmoloqları arasında Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş ilk alimdir.

Zərifə xanımın elmi-tədqiqat işlərinin mövzu dairəsi çoxşaxəli və genişdir. O, görmə orqanlarının virusla zədələnməsinə, bu sahədə aparılan müalicə-profilaktika tədbirlərinə silsilə işlər həsr etmişdir. Onun "Herpetik göz xəstəliyi", "Ağır virus konyunktivitləri" və sair əsərləri bu qəbildəndir.

Akademik Zərifə Əliyeva çoxsaylı elmi əsərlərin, monoqrafiya, səmərələşdirici təklif və dərs vəsaitlərinin müəllifi olmuşdur. Görkəmli alim gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli həkim-oftalmoloqların, professional elmi kadrların yetişdirilməsində böyük xidmətlər göstərmişdir. O, onlarca elmlər doktoru və elmlər namizədinin elmi rəhbəri və məsləhətçisi olmuş, böyük bir elmi məktəb yaratmışdır. Təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda da görkəmli alim kimi tanınan Zərifə Əliyeva oftalmologiya elmində əldə etdiyi nailiyyətlərə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində göstərdiyi əvəzsiz xidmətlərinə görə Azərbaycanın "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Zərifə xanım mətbuatda həkim etikası problemlərinə dair maraqlı məqalələr dərc etdirmişdir. Həmin məqalələrdən birində o yazırdı: *"Əsl həkim yalnız o şəxsdir ki, xəstənin əzablarını öz əzabları bilir və onun üçün sağalıb evinə qayıtmış insanın təbəssümü ən yüksək mükafatdır. Vicdan əsas hakiminizdir. Ən çətin məqamda və ən xoş saatımızda o, bizimlə üzbəüz dayanıb soruşacaq: Sənin ağ xalat geyinməyə haqqın varmı?"*

Zərifə xanım Əliyeva yaşadığı ömürə təkcə yaxşı həkim olmağı sığdırmamışdır. O, heç kəsin dərdinə biganə qalmayan qayğıkeş İnsan, vəfalı ömür-gün yoldaşı, mehriban ana idi. Çünki Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ömür-gün yoldaşı və müstəqil Azərbaycanı yeni inkişaf mərhələsinə çıxaran ölkə Prezidenti cənab İlham Əliyevin anası olmaq bir qadın üçün böyük xoşbəxtlikdir.

Akademik Zərifə xanım Əliyeva 1985-ci il aprel ayının 15-də əbədiyyətə qovuşmuşdur. İllər bir-birini əvəz etsə də, əvəzolunmaz alimin əziz xatirəsi heç vaxt yaddan çıxmır, daim ehtiramla yad olunur. İndi onlarla məktəb, xəstəxana, poliklinika, bağ və parklar, küçələr akademik Zərifə xanım Əliyevanın adını daşıyır. Onun xatirəsinə ucaldılan büst və abidələr görkəmli alimə və əsl İnsana olan ehtiramın və məhəbbətin tükənməz təzahürüdür. Akademik Zərifə Əliyeva irsi həm bu günümüz, həm də gələcəyimiz üçün tükənməz, təkrarsız bir örnəkdir. Ürəkləri xeyirxah əməllərlə dolu insanlar dünyalarını dəyişmirlər. Xalqımızın qəlbində Zərifə xanımın işıqlı xatirəsi əbədi yaşayacaqdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Sədərək rayonunda əmək yarmarkası olub



***Dünən Sədərək rayonunda növbəti əmək yarmarkası keçirilib.***

Tədbirdə çıxış edən rayon Məşğulluq Mərkəzinin direktoru Həsən Nəsirov qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 yanvar 2016-cı il tarixdə imzaladığı Sərəncam ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" muxtar respublikamızda sahibkarlığın, xüsusən kiçik sahibkarlığın inkişaf etdirilməsinə, yeni ehtiyatlar hesabına iş yerlərinin açılmasına, regiondakı əmək ehtiyatlarının iqtisadi fəallığının yüksəldilməsinə öz töhfəsini verir.

Sədərək Rayon İcra Hakimiyyətinin əməkdaşı Bəxtiyar Mahmudov çıxışında qeyd edib ki, həyata keçirilən tədbirlərin nəticəsidir ki, sərhəd bölgəsi olan Sədərək rayonunda da əhalinin məşğulluğu prioritet vəzifəyə çevrilib, ötən dövrdə bu sahədə uğurlu nəticələr əldə olunub.

İşaxtaran sakinlər yarmarkanın təşkilində əməyi olanlara minnətdarlıq edərək bildiriblər ki, vətəndaşların müvafiq işlərlə təmin olunmasında əmək yarmarkalarının əhəmiyyəti böyükdür.

Sonra tədbir iştirakçıları idarə, müəssisə və təşkilatlar tərəfindən əmək yarmarkasına çıxarılmış boş iş yerləri ilə tanış olublar.

Qeyd edək ki, yarmarkaya 6-sı dövlət 2-si özəl olmaqla, 8 təşkilatdan 78 boş iş yeri çıxarılıb, 12 nəfərə işə göndəriş verilib.

**Nail ƏSGƏROV**

## Muxtar respublikada yaşıllıq sahələri 170 hektar artırılıb

***Naxçıvan Muxtar Respublikasında təbiətin qorunması, əlverişli ekoloji mühitin yaradılması sahəsində həyata keçirilən tədbirlər 2018-ci ilin birinci rübündə də davam etdirilmiş, dövlət proqramlarında nəzərdə tutulmuş ekoloji tədbirlər vaxtında icra olunmuşdur.***

Cari ilin yaz əkin mövsümündə muxtar respublikanın yaşıl örtüyünün sahəsi 170 hektar artırılmışdır. Belə ki, 21,5 hektarı üzüm bağı olmaqla, 78,5 hektar sahədə yeni meyvə bağları, 91,5 hektar sahədə isə yaşıllıq zolaqları salınmış, 221 min meşə və meyvə tingləri, bəzək və gül kolları əkilmişdir. 2018-ci ildə Naxçıvan şəhərinin ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə bağlı olaraq muxtar respublikada 21 hektar ərazidə "Gənclər bağı" salınmışdır. Əkin işlərinin aparılmasında istifadə edilən ting ehtiyatı nazirliyin tingçilik təsərrüfatlarında yetişdirilmişdir. Hazırda tingçilik təsərrüfatlarında əkinəyararlı 300 mindən çox meşə və meyvə tingləri, eləcə də gül kolları vardır.

Muxtar respublikada təbiətin mühafizəsi sahəsində tədbirlər davam etdirilmiş, 20 yoxlama-reyd aparılmışdır. Həmçinin istifadə edilən suların ekoloji vəziyyətinin nəzarətdə saxlanılması və standartlara uyğunluğunun öyrənilməsi məqsədilə 35 monitorinq-yoxlama həyata keçirilmişdir. Bundan başqa, tullantı poliqonlarında ekoloji vəziyyət nəzarətdə saxlanılmış, ətraf mühit və təbii sərvətlərdən istifadəyə dair 49 müəssisəyə ekoloji ödənişlər tətbiq edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***



*Muxtar respublikanın ən böyük kəndlərindən olan Nehrəm qədim tarixə malikdir. Kəndlə bağlı əldə etdiyimiz ilk yazılı mənbə "İrəvan əyalətinin müfəssəl dəftəri"dir. 1727-ci ilə aid bu mənbədə həmin kəndin Qışlağat nahiyəsində olduğu qeyd edilir.*

*Tarixdən bu günə*

# Qədim tarixə malik yurd yerimiz




Bu nahiyənin çox hissəsi Araz çayının sağ sahilində qalmışdır. Nehrəm yaxınlığında olan Dendabad (Didivar), Uzunoba (bu kəndlər eyni vaxtda həm də Naxçıvan nahiyəsinə daxil idi), Molla Həmdi Məzrəsi, Hocamverdi Məzrəsi, Qiyaslı, Qaraca və digər kəndlər XVI əsrin sonlarından XVIII əsrin əvvəllərinədək davam edən Osmanlı-Səfəvi, 1813-1828-ci il İran-Rusiya müharibələri dövründə boşalmışdı.

Əldə etdiyimiz məlumata görə, həmin illərdə Nehrəmdə 234 ailə yaşayıb və bura o dövr üçün də böyük kəndlərdən hesab edilib. "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə kəndin təsərrüfatı haqqında da geniş məlumat vardır. Burada buğda, arpa, sumaq, darı, mərcimək, müxtəlif noxud növləri, pambıq, bostan əkinləri, üzüm becərilməsi haqqında statistik məlumat verilir. Mənbədə başqa yerlərdən gəlib buradan qışlaq kimi istifadə edənlərdən vergi alınması, ümumilikdə, Nehrəm kəndinin 35 min 141 axça vergi ödəməsi haqqında faktlara da rast gəlinir.

Rus şərqşünas K.M.Smirnov Nehrəmin 56 verst ərazisində 940 xalvar suvarılan torpağı olduğunu, kənddə 3 məscid, 7-ci imam Museyi Kazımın oğlu Seyid Əqilin məzarı – İmamzadənin olduğunu göstərir. Qeyd olunur ki, kəndin əhalisi əslən Vərməziyarlıdırlar. Vərməziyar böyük bir kənd olub. Şah Abbasın sürgünündən sonrakı dövrdə Naxçıvanın bir çox kəndlərinə Vərməziyardan köçüb gəliblər. Bu gün Şərurda eyniadlı kənd vardır. Quberniya katibi Zolotniçkinin tərtib etdiyi kameral siyahıya görə, 1831-ci ildə Nehrəmdə 202 ailə və 887 nəfər yaşamışdır.

1828-ci ildə Naxçıvan əyalətinin iqtisadi-statistik təsviri üçün Qafqaza ezam olunan çar Rusiyası maliyyə nazirliyinin məmuru V.Qriqoryevin məlumatına görə, 1828-ci ildə, müharibə dövrü Nehrəmdən 81 ailə İrana köçüb. 208 erməni ailəsi isə Nehrəmdə yerləşdirilib. Həmin dövrdə Nehrəmdə 116 azərbaycanlı ailəsi yaşayıb. Tarix elmləri doktoru Həcər Verdiyeva qeyd edir ki, Türkmənçay müqaviləsindən sonra, 1828-1832-ci illərdə Naxçıvan əyalətini 1400 azərbaycanlı ailəsi tərk edib. İrandan Azərbaycana köçürülən 2551 erməni ailəsindən 208-i Nehrəmə yerləşdirilib. 1831-ci ilin məlumatından görünür ki, mübariz Nehrəm əhalisi ermənilərin bu kənddə yaşamasına imkan verməyib. Nehrəm camaatının bu addımı 100 ilə yaxın bir dövr keçdikdən sonra – 1918-ci ildə bunun əsaslı səbəblərə söykəndiyini bir daha təsdiq edib.

V.Qriqoryevin məlumatına görə, əhali torpaq sahəsinin üçdəbirindən istifadə edib. 200 xalvar taxıl, 100 xalvar pambıq, qalanına isə bostan bitkiləri və yonca əkib.

Tarixçi-etnoqraf İvan İvanoviç Şopen yazır ki, XX əsrin ortalarında Nehrəmdə 202 azərbaycanlı ailəsində 465 kişi, 422 qadın, cəmi 887 nəfər yaşayırmış.

XIX əsrin əvvəllərində Naxçıvana erməni köçürmələrinin nəticəsi XX əsrin əvvəllərində özünü göstərdi. 1905-ci il may ayının 12-dən etibarən Naxçıvanda ermənilər dinc əhaliyə silahlı hücumlar etməyə başladılar. Nehrəmlilərin də dəfələrlə üzləşdiyi erməni fitnəkarlığı və qəddarlığından söz düşmüşkən, erməni xislətini ifşa edən rus mənbələrindəki faktları diqqətinizə çatdırmaq istərdik. Həmin dövrdə Rusiyanın İranda səfiri olan, 1828-ci ildə ermənilərin Azərbaycana köçürülməsinə rəhbərlik edən ermənipərəst Qriboyedovun çara ünvanladığı bir məktubda deyilir: "Erməniləri Rusiyanın içərilərinə buraxmayın, bunlar elə bir millətdir ki, bir neçə on il həmin ərazidə yaşasa, dünyaya səs-küy salacaqlar ki, onlar buranın tarixi sakinləridirlər".

V.Qriqoryevin ermənilər üçün etdiyi bir qeyd də yerinə düşər: "Ermənilərin düşüncəsinə görə, biclik, yalançılıq və aldatma ağıllılıqla sinonimdir. Biclik və aldatmaq bacarmayanlar gicdir. Ermənilər hakimiyyət dəyişikliyindən sonra hansı xeyri götürdülər? Rus dövləti onları səfalətdən qurtardı. Təsərrüfatlar qurdu. Onlar isə sanki bunu qiymətləndirə bilmir və adi təşəkkür belə etmək istəmirlər".

1918-ci il yanvarın 17-dən başlayaraq amansız və davamlı daşnaq hücumlarının qarşısının alınmasında nehrəmlilər misilsiz şücaət göstərdilər. Həmin il martın 8-də Naxçıvanda nehrəmli Hacı Molla İsmayıl Axundzadə bir əlində müqəddəs "Qurani-Kərim", digər əlində tapança müsəlmanları cihada çağırması əhalinin düşmənə qarşı səfərbər olmasına səbəb oldu. Martın 14-də Şahtaxtı, Qıvraq və Nehrəmdən 100 nəfər şəhərə köməyə gəldi. Martın 24-də nehrəmlilər Güznüt ermənilərinə 20 manata casusluq edən xarici ölkə vətəndaşını tutaraq Naxçıvan Milli Komitəsinə təhvil verdilər. Martın 31-də Qaraxanbəyli kəndində şəhid olan 25 nəfərin içərisində Kərbəlayı Abdulla Nehrəmli də var idi. 1918-ci il aprelin 1-də Nehrəm qlavası, nüfuz sahibi, həqiqi mücahid Kərbəlayı Mustafa Hacı Cəfər Əlizadə və bir neçə silahlı adamla Milli Komitənin zalına gəlib Nehrəm şəhidlərinin Qaraxanbəyli kəndindən gətirilməyini tələb etdi. Aprelin 14-də düşmənin qarşısını almaq üçün Kərbəlayı Muxtarın başçılığı ilə Dərəşam təpələrini tuturlar. 11 mayda Nehrəm əhli Kərbəlayı Muxtar tərəfindən Osmanlı qüvvəsinin 10 nəfəri bir top ilə Dərə düzə, 100 nəfər isə bir top ilə Kardaşa göndərildi.



Həmin il iyulun 4-də Andranikin qoşunu Nehrəmi top və pulemyot atəşinə tutur. Naxçıvandan kiçik bir qüvvə – Hacı Qəmbər Dünyamalı oğlu, Məşədi Heydər Əkbər oğlu və digərləri Nehrəmə köməyə gəlirlər. Zülfəli bəy Kərbəlayı Həsənqulu oğlu Naxçıvana qayıdıb məlumat verir ki, Andranikin dəstəsi böyük qüvvə ilə Nehrəmi mühasirəyə alıb. Bu döyüşdə Andranikin dəstəsi böyük tələfat verir və onlar geri çəkilməyə məcbur edilir. Təəssüf ki, ermənilər "Nehrəm arxı" yanındakı evləri yandırmağa müvəffəq olurlar. Həmin vaxt Hacı Qəmbər, Məşədi Heydər mühasirəni yarıb Nehrəmə daxil olur. Andranikin dəstəsinə böyük zərbə vurularaq 60 silah qənimət götürülür. Nehrəm sakini Müslüm Bağırbəyova, topçu, iranlı Yavər Əfəndiyə Nehrəm mühasirəsindəki şücaətlərinə görə "Əvvəlinci" dövlət nişanı verilir.

Osmanlı mənbələrinə görə, 1918-ci il iyulun 24-də 124 nəfər türk əsgəri tərəfindən mühasirəyə alınan Andranik 125 əsgər və atını itirərək Culfadan Naxçıvana daxil olur.

Nehrəm uğrunda 3 gün döyüş gedir. Kərbəlayı Muxtar, Hacı Mehdiyev, Müseyib və Müslüm qardaşları, dülgər Hacı Mehdi, topçu Yavər xüsusi qəhrəmanlıq göstərirlər.

Təxminən, əsrə yaxın bir dövr keçdikdən sonra – XX əsrin 90-cı illərində də ermənilərin Naxçıvana hücumu zamanı nehrəmlilər vətənin müdafiəsində yaxından iştirak edib və onlardan 10-u şəhidlik zirvəsinə ucalıb. Vətən uğrunda canından keçən igidlərin xatirəsini əbədiləşdirmək üçün bu gün Nehrəm kəndində Şəhidlər abidə kompleksi yaradılıb.

Müstəqillik əldə edildikdən sonra Nehrəm kəndinin siması tamamilə dəyişib. Kənddə yenidənqurma işləri aparılıb, 3 tam orta məktəb, kənd xəstəxanası, xidmət mərkəzləri, təsərrüfat subyektləri və Heydər Parkı, C.Məmmədquluzadənin Xatirə muzeyi istifadəyə verilib.

Bu gün kənddəki İmamzadə məqbərəsinin dövlət tərəfindən əsaslı təmiri, demək olar ki, başa çatmışdır. Smirnovun yazdığına görə, dini mənbələrdə də göstərilir ki, Nehrəm İmamzadəsində şiələrin VII İmamı Museyi-Kazımın oğlu Əqil (Seyid Əzəm) dəfn olunub. Museyi-Kazımın övladları Abbasilər xəlifələri tərəfindən təqibə məruz qalmışlar. 816-cı ildə xəlifə Məmun Museyi-Kazımın oğlu imam Rzanı saraya dəvət edərək taxtacın vəliəhdi elan etmiş, qızı Həbibə ilə evləndirmişdir. Məmun bu hərəkəti ilə mötədil şiələrin rəğbətini qazanmaq istəyirdi. Şiələrlə əlaqəni kəsdikdən sonra Məmunun əmri ilə 818-ci ilin sentyabrında Tus şəhərinin yaxınlığındakı Nukən kəndində imam Rzaya zəhər verilmişdir. Bundan sonra daha ciddi təqiblərə məruz qalan Museyi-Kazımın övladları Azərbaycana, xüsusən Naxçıvan ərazisinə sığınıb burada yaşamışlar. Ona görə də Əqilin qəbri Nehrəmdə, İbrahimin qəbri Şərur rayonunun Xanlıqlar kəndində, digərləri isə Naxçıvanın tarixi ərazisi olan Mehridə və Azərbaycanın qədim şəhərləri olan Bərdədə, Gəncədədir.

Bu qədim torpağı ikiqat müqəddəs edən isə buradakı insanların əqidəliyi, mübarizliyi, halallığıdır. Tarixi mənbələr göstərir ki, Nehrəm kəndinin mübariz sakinləri ərəb xilafətinin, xüsusən xəlifənin özünün təqib etdiyi VII imam Museyi-Kazımın oğlu Əqilə sığınacaq vermiş, 1918-ci ildə Andranikin quldur dəstələrinin məkrli niyyətlərinin həyata keçirilməsinə ciddi zərbə vurmuş və nəhayət, 1990-cı illərdə muxtar respublikamızın müdafiəsində yaxından iştirak etmişlər. Onlar 1990-cı ildə ümummilli liderimiz Heydər Əliyevi Azərbaycan SSR Xalq deputatı seçməklə bu dahi şəxsiyyətin müstəqil və inkişaf etmiş Azərbaycan uğrunda apardığı məqsədyönlü mübarizəni, onun siyasi ideyalarını dəstəklədiklərini bildirmişlər. Ona görə də Nehrəmi Azərbaycanın və eləcə də Türk dünyasının qeyrət nümunəsi kimi təqdim etməyə dəyər.

**Zaleh NOVRUZOV**

## Maarifləndirici tədbir keçirilib



***"Duzdağ" otelində mehmanxana nümayəndələrinin iştirakı ilə "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olması və qeydiyyat proseduru" mövzusunda maarifləndirici tədbir təşkil olunub.***

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin təşkilatçılığı ilə keçirilən tədbiri giriş sözü ilə xidmətin əməkdaşı Zakir Məmmədov açaraq bildirib ki, bu gün muxtar respublikaya gələn hər bir əcnəbinin və vətəndaşlığı olmayan şəxsin qəbulu və qeydiyyatının aparılması sadələşdirilib. Miqrantların rahatlığının təmin edilməsi məqsədilə sərhəd-buraxılış məntəqələrinin miqrasiya bölmələrində qeydiyyat sadələşmiş formada aparılır. Muxtar respublika ərazisində fəaliyyət göstərən mehmanxanalarla xidmət arasında yaradılmış "Elektron hökumət" portalı üzərindən aparılan elektron sənəd dövriyyəsinin də ölkəyə gələn əcnəbilərin qeydiyyata alınmasında böyük rolu vardır.

Muxtar respublikanın Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Əkbər Novruzov və "Duzdağ" otelin icraçı direktoru Novruz Novruzov çıxış edərək qeyd ediblər ki, mehmanxana təsərrüfatı turizm sənayesinin mühüm tərkib hissəsidir. Belə ki, burada turistlərə lazım olan əsas yerləşmə xidmətləri göstərilir. Bu baxımdan Naxçıvandakı mehmanxanalarda yaradılmış komfortlu şərait regiondakı turizm və qonaqpərvərlik xidmətlərinin yüksək səviyyəsindən xəbər verir. Bu otellərdə göstərilən xidmətlər, ümumilikdə, regionda turizmin inkişafına mühüm təsir edir.

Sonra Dövlət Miqrasiya Xidmətinin əməkdaşı Qiyas Paşayev çıxışında deyib ki, "Elektron hökumət" portalında Dövlət Miqrasiya Xidməti üçün konkret sahələr üzrə 9 xidmət növü müəyyənləşdirilib. Artıq bu sahələr xidmət tərəfindən avtomatlaşdırılıb, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, eyni zamanda Azərbaycan Respublikası vətəndaşlarının istifadəsinə verilib. Həmin xidmət növləri, əsasən, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyatı, müvəqqəti və daimi yaşaması, müvəqqəti olma müddətinin uzadılması, iş icazələrinin verilməsi və müddətlərinin uzadılması, Azərbaycan Respublikası vətəndaşlığına bərpa, miqrasiya orqanlarına işə qəbul, dövlət rüsumlarının və cərimələrin onlayn ödənilməsi ilə bağlı sahələri əhatə edir.

Sonda Naxçıvan Muxtar Respublikasının turizm potensialı ilə bağlı videoçarx nümayiş etdirilib.

**Nail ƏSGƏROV**

## Gənclərin *"Əshabi-Kəhf Ziyarətgahı"* Dini-Mədəni Abidə Kompleksinə ekskursiyası təşkil olunub

*Aprelin 13-də Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan müəssisələrin gənclərinin "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinə ekskursiyası təşkil olunub.*

Məlumat verilib ki, Əshabi-Kəhf ziyarətgahı yüz illərdir, insanların üz tutduğu müqəddəs yerlərdən biridir. Hər il buranı Azərbaycanın digər bölgələrindən və xarici ölkələrdən gələn minlərlə zəvvar, turist və qonaqlar ziyarət edirlər.

Vurğulanıb ki, ziyarətgahda ilk dəfə 1998-ci ildə ümummilli liderimiz Heydər Əliyevin tapşırıq və himayəsi ilə tikinti-abadlıq işləri görülüb. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli qərarına əsasən bura ölkə əhəmiyyətli daşınmaz tarixi və mədəniyyət abidələri siyahısına daxil edilib. 2006-cı ildə burada "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi yaradılıb. Həmin ilin may ayında kompleksdə yenidən tikinti-abadlıq işləri görülüb. Burada maşınlar üçün dayanacaq, inzibati binalar, qonaq evi, mağazalar tikilib. Ziyarətgaha içməli su xətti çəkilib. Ziyarətgah ətrafında bağ salınıb.

Vurğulanıb ki, ziyarətgah Naxçıvan şəhərindən 12 kilometr aralı məsafədə olan dağdır. Əshabi-Kəhf ərəb dilində "Mağara adamları" deməkdir. Bir sıra ədəbiyyatlarda, o cümlədən müqəddəs "Qurani-Kərim"də bu yer haqqında məlumat vardır. Əfsanəyə görə, bütpərəst hökmdarın zülmündən və təqibindən qaçan 7 nəfər insan mağarada gizlənmiş və orada, təqribən, 300 illik yuxuya getmişlər. Naxçıvan ərazisində yayılmış əfsanə də, demək olar ki, bu məzmundadır. Tədqiqatçılar bu müqəddəs yerin 3000 ildən artıq yaşının olduğunu bildirirlər. Əshabi-Kəhf dağı Tanrının yaratdığı təbiət abidəsi kimi də insanları özünə cəlb etməkdədir.

Naxçıvan şəhərinin 2018-ci ildə İslam Mədəniyyətinin Paytaxtı olması buraya diqqətin artmasına səbəb olub.

Gənclər ekskursiyadan maraqlı təəssüratlarla qayıdıblar.

**Əli RZAYEV**

*Etnoqrafiyamız*

# Ağac kultu xalqımızın qədim inanclarındandır

***Kainat yaranandan bəri Tanrının insanlara bəxş etdiyi hava və su kimi nemətlərdən əlavə ağaclar, yaşıllıqlar da böyük əhəmiyyəti ilə seçilir. Sağlam həyatın mənbəyi olan yaşıllıqların rolunu, əhəmiyyətini qiymətləndirən bəşər övladı ağacsız həyatın mümkünsüzlüyünü görərək onu müqəddəs bilib, tarixin müxtəlif dövrlərində ağaca etiqad da edib. Ağac əsrlərdən bəri ulularımızın dini-fəlsəfi, bədii düşüncələrində müstəsna yer tutaraq gələcək həyatı, dünyagörüşü istiqamətləndirən, formalaşdıran bir inanc sistemi olub. Ulularımızın mifoloji düşüncəsindəki bu inam bu gün də xalqın mənəvi dünyasında əhəmiyyətli rol oynayır. Elə bu səbəbdən hazırda üz tutduğumuz ziyarətgahların bir qismində ağaca inamını özündə əks etdirən nümunələrə rast gəlmək mümkündür.***



Qədim türklərin dini dünyagörüşünün, inanc-etiqad sisteminin müəyyən tərkib hissəsini təşkil edən ağacla bağlı pirlər, tapınaqlar yüz illər boyu qorunaraq qurbanvermə, ibadət, şəfatapma ocağı kimi müqəddəsləşib. Canlılığı, bərəkəti təmsil edən ağacla bağlı inancların izlərinə muxtar respublikamızın da bir çox yerlərində rast gəlinməkdədir. Belə ağaclar sırasında dağdağan, tut, cəviz, ardıc, çinar əhəmiyyətli yer tutur. Lakin müqəddəs ağac funksiyasını daha çox dağdağan ağacı daşıyır. Onu kəsmək, qol-budağını qırmaq günah sayılır və bu işi görən şəxsin lənətlənərək bir çox bəlalara düçar olacağına inanılır.

Ulularımız dağdağan ağacının həm də sehrli gücə malik olduğuna inanıblar. Ağacın budaqlarından kiçik hissəciklər ayıraraq üzərinə isti dəmirlə bir neçə xətt dağlayıb körpə uşaqların paltarlarına sancaqlayıb, bu yolla onu bədnəzərdən qoruduqlarını düşünüblər. Bu inanc insanlar tərəfindən bu gün də öz önəmini itirməyib.

Hələ X əsrdə uşaqları, hətta heyvanları şər qüvvələrdən qorumaq üçün onların boyunlarından dağdağan ağacının parçasını asardılar. İnanardılar ki, bu sehrli ağac qəbilənin, soyun, xalqın qoruyucusudur. Ağaca olan inanc insanların mənəvi dünyasında, düşüncəsində minilliklər keçərək bu günə qədər gəlib çatmışdır.

İslamdan əvvəl yurdumuzda yaşayan bir çox türk tayfalarının inancında ağac el-obanı, vətəni, hətta kimsəsiz körpələri qoruyan bir obraz kimi dəyərləndirilir. Buna bir çox mifoloji folklor örnəklərində də rast gələ bilərik. Məsələn, "Kitabi-Dədə Qorqud" dastanında təbiət insanın sığınağıdır və insanoğlunun inanıb, kömək umduğu aləmdir. Günəş, ulduz, su, torpaq, ağac insanın inam qaynağıdır. Məsələn, "Salur Qazanın evi yağmalandığı boyu bəyan edər" boyunda Qazan oğlu Uruz ağaca aşağıdakı kimi müraciət edərək onun səciyyəvi keyfiyyətlərini sadalayır:

*Ağac, ağac! Dersəm sana,*
*ərlənmə ağac!*
*Məkkə ilə Mədinənin qapısı ağac!*
*Musa Kəlimün əsası ağac!*
*Böyük-böyük suların körpisi ağac!*
*Qara-qara dənizlərin*
*gəmisi ağac!*
*Şahi-mərdan Əlinin Düldülinin*
*əyəri ağac!*
*Zülfiqarın qınıyla qəbzəsi ağac!*
*Ah Həsənlə Hüseynün beşiyi*
*ağac!..*

Ağaca, dağa olan bu inam xalqımızın daş yaddaşı olan bu boylarda yaşayır. "Kitabi-Dədə Qorqud" dastanında insanların ağaca müraciətləri əcdadlarımızın müxtəlif totemlərə inamı ilə əlaqədardır.

Muxtar respublikamızın bir çox yerlərində "Dağdağan piri" adlanan müqəddəs ocaqlar mövcuddur. Məsələn, Ordubad rayonunun Tivi və Aza kəndlərində, Əshabi-Kəhf ziyarətgahının "Cənnət bağı" adlanan ərazisində və sair. Ordubad rayonunun Tivi kənd sakininin həmin kənddə olan Dağdağan piri haqqındakı söhbəti maraqlıdır.

87 yaşlı Famil Bayramov deyir ki, xalqın təsəvvüründə dağdağan oduncağı gözdəymədən, bədnəzərdən qorumaq gücünə malikdir. İnsanlar bu ağacdan müxtəlif həmaillər düzəldərək gözmuncuğu və başqa muncuqlarla birlikdə amulet kimi istifadə edirdilər. Mən hələ insanların belə həmailləri uşaqkən körpələrin nənnisindən, atların boynundan, südlük və ətlik mal-qaranın boğazından, hətta nehrələrdən asdıqlarının şahidi olmuşam. Bu gün də bu kənddə dağdağan ağacı müqəddəs sayılır və onu kəsmək olmaz. Dağdağan bizim kənd sakinlərinin inanc yeri olub. Həmişə dağdağan ağaclarının budaqlarına müxtəlif parçaların bağlandığını görmüşəm. İndi də belədir, budaqlarda müxtəlif parçalardan niyyət düyünləri var.

Qeyd edək ki, bu ocağın tarixini dəqiq bilən yoxdu. Bu ağacı kim əkib? Bəlkə, elə təbiətin işidi, bu müqəddəs ağacın özü burada baş qaldırıb? Bəs, görəsən, ağacların ətrafındakı hörgünü kim tikib?

Famil müəllim deyir ki, uşaq olanda məni bura tez-tez gətirən nənəmə bu sualları çox vermişdim. Ocağın tarixi, ağacın kim tərəfindən əkilməsi haqqında nənəm heç nə bilmirdi. O deyirdi ki, mən gözümü açandan ocağı belə görmüşəm. Məndən böyüklər də buraya dilək diləməyə gələrdilər. Müsahibim deyir ki, uşaqkən tez-tez xəstələndiyimdəm nənəm məni bu müqəddəs ocağa gətirərdi. O hər arzusunu, diləyini asta-asta bu ağaca deyərdi. Başındakı şalının bir ucunu kürəyinə ataraq üfürə-üfürə ağacın yanında ocaq qalayar, ocaq yanıb kül olana qədər dua edərdi. Ağacın ətrafındakı tikili isə bir kənd sakini tərəfindən inşa edilib. Dediyinə görə, pirlə bağlı yuxu görüb və sonra burada namaz qılmaq üçün kiçik tikili ucaldıb. İndi burada insanlar namaz qılıb, dua edirlər.

Yurdumuzun bütün bölgələrində özündə yerli türk ənənələrini saxlamaqla yanaşı, islami xarakter daşıyan, türk-islam mədəniyyəti abidələrimiz, dini inanc yerlərimiz var. Onların hər biri xalqımızın etnik tarixinin, maddi və mənəvi mədəniyyətinin, qədim dünyagörüşünün öyrənilməsində mühüm əhəmiyyət kəsb edir.

Ulularımızın fəlsəfi düşüncəsində dərin iz buraxmış bu inanclar əhalinin mənəvi həyatının tam mənzərəsini təsəvvür etməyə imkan verir. Xalqımızın bu mənəvi etiqadları göstərir ki, əsrlərin sınağından keçmiş belə qədim inanclarla bağlı olan adətlər yurdumuzun insanları tərəfindən unudulmayıb, ulularımızdan qalan belə dəyərlər bu günədək qorunub saxlanılıb. Ümumilikdə isə buradan belə nəticəyə gəlmək mümkündür ki, ağac kultu xalqımızın qədim inanclarından biri olub.

**Gülcamal TAHİROVA**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 7 may 2018-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın (15 faiz) güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | 3509 kvadratmetr torpaq sahəsində yerləşən 1056 kvadratmetr ümumi, 1056 kvadratmetr əsas sahədən ibarət olan (tərəvəz yetişdirmək üçün) istixana kompleksi | Kəngərli rayonu, Yurdçu kəndi | 10 000 | 8 500 | 500 |
| 2. | 120 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı fərdi yaşayış evi | Kəngərli rayonu, Qarabağlar kəndi | 9 000 | 7 650 | 450 |
| 3. | 1149 kvadratmetr torpaq sahəsində yerləşən 2 mərtəbəli, 5 otaqlı, 108,0 kvadratmetr yaşayış, 171,5 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Kəngərli rayonu, Qarabağlar kəndi | 22 000 | - | 1 100 |
| 4. | 185,8 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 156,0 kvadratmetr ümumi, 127,2 kvadratmetr əsas, 28,8 kvadratmetr köməkçi sahədən ibarət qeyri-yaşayış binası | Kəngərli rayonu, Qıvraq qəsəbəsi | 22 000 | - | 1 100 |
| 5. | 1496 kvadratmetr torpaq sahəsində yerləşən 5 girişli, 208,12 kvadratmetr ümumi, 120,0 kvadratmetr əsas, 88,12 kvadratmetr köməkçi sahədən ibarət fərdi quşçuluq təsərrüfatı | Kəngərli rayonu, Qarabağlar kəndi | 19 096 | - | 954,80 |
| 6. | 99 kvadratmetr torpaq sahəsində yerləşən 2 girişli, 84,0 kvadratmetr ümumi, 84,0 kvadratmetr əsas sahədən ibarət qeyri-yaşayış binası (köhnə poçt) | Kəngərli rayonu, Qarabağlar kəndi | 8 301 | - | 415,05 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 5 faiz məbləğində beh Naxçıvan Muxtar Respublikası Mərkəzi Bankının İcra Məmurlarının Xüsusi Vəsaitlər Fonduna 4 may 2018-ci il tarixədək ödənilməlidir.

Hərracda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakın sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

*- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*

*- ödəniləcək behin qəbzi;*

*- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 7 may 2018-ci il tarixdə, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

***Şərur Rayon Mədəniyyət Evində Naxçıvan şəhərinin 2018-ci ildə ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar hazırlanmış tədbirlər planının müvafiq bəndinə əsasən ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş yeniyetmələr arasında intellektual oyunlar olimpiadasının Şərur rayon birinciliyi keçirilib.***

## Yeniyetmələr arasında intellektual oyunlar keçirilib



Olimpiadanın keçirilməsinin məqsədi yeniyetmələrin intellektual fəaliyyətə cəlb edilməsi, onların bu sahədə bilik və bacarıqlarının artırılması, intellektual səviyyələrinin, dünyagörüşlərinin formalaşdırılması, asudə vaxtlarının səmərəli təşkil edilməsidir.

Olimpiada çərçivəsində oyunlar "Nuh yurdu", "Kim? Nə? Hara?", "Vətəni tanı" intellektual oyunları və "İntellektual gənc" bilik yarışması üzrə vahid turnir şəklində təşkil edilib.

"İntellektual gənc" bilik yarışmasında ilk üç pillədə Oğlanqala kənd tam orta məktəbinin şagirdi Qızıllı Vəliyeva, Kürkənd tam orta məktəbinin şagirdi Səlimə Vəliyeva və Şərur şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Zəhra Cəfərova qərarlaşıblar.

"Kim? Nə? Hara?" intellektual oyununda Siyaqut kənd tam orta məktəbinin şagirdi Teymur İsmayıllı rəqiblərini qabaqlayıb. Şərur şəhər 2 nömrəli tam orta məktəbin şagirdi Nihad Quliyev və Çərçiboğan kənd tam orta məktəbinin şagirdi Ülvü Məmmədli ikinci və üçüncü olublar.

"Vətəni tanı" intellektual oyununda Kürkənd tam orta məktəbinin "Turan" komandası qalib adını qazanıb. Digər iki pillənin sahibləri isə Şərur şəhər 2 nömrəli tam orta məktəbin "Nəqşicahan" və Çərçiboğan kənd tam orta məktəbinin "Zirvə" komandaları olublar.

"Nuh yurdu" intellektual oyununda isə Şərur şəhər 1 nömrəli tam orta məktəbin "Azərbaycan" komandası hamıdan güclü olub. Çərçiboğan kənd tam orta məktəbinin "Zirvə" komandası ikinci, Mahmudkənd tam orta məktəbinin "Naxçıvan" komandası isə üçüncülüklə kifayətləniblər.

Qaliblərə təşkilatçıların diplom, fəxri fərmanları və oxunması zəruri olan kitablar təqdim olunub.

Qeyd edək ki, qalib komandalar may ayında təşkil olunacaq intellektual oyunlar olimpiadasının muxtar respublika birinciliyində Şərur rayonunu təmsil edəcəklər.

Olimpiada Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri, Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyi və "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilib.

**Ceyhun MƏMMƏDOV**

### *Bildiriş*

"Mənzil" Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN-0200304751) hüquqi adı dəyişilərək "Hüquq Xidməti və Məsləhət Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.

### *İtmişdir*

Məmmədov Elgün Nadir oğlunun adına verilmiş MN-0050959 seriya nömrəli mayorun hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 282